


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (24.183)

*11 mart 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## Prezident İlham Əliyev İsrailin kəşfiyyat nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da İsrail Dövlətinin kəşfiyyat naziri Gila Gamlieli qəbul edib.

Görüşdə X Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq bu tədbirin yüksək səviyyədə təşkil olunduğu və burada dünyanın nüfuzlu siyasətçilərinin, xeyli sayda ölkə və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi, aktual məsələlərin müzakirəsi üçün Forumun yaxşı imkan yaratdığı vurğulandı.

Azərbaycan ilə İsrail arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirilərək ölkəmizin İsraildə səfirliyinin açılmasının önəmi, eyni zamanda bu ilin fevralında Prezident İlham Əliyevin Münxendə İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü qeyd edildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Nobel sülh mükafatı laureatı Kailaş Satyartini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Nobel sülh mükafatı laureatı Kailaş Satyartini qəbul edib.

Kailaş Satyarti X Qlobal Bakı Forumunun əhəmiyyətindən danışdı, özünün dediyi kimi, bu cür tarixi bir tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə sıx əməkdaşlıq etməkdən məmnunluğunu ifadə etdi. Qonaq qeyd etdi ki, dünyada hazırkı zamanda bu tədbir çox böyük önəm daşıyır. O dedi: “Hazırda dünyada mədəniyyətlər arasında parçalanmanın baş verdiyi və bu sahədə ciddi təhdidlərin mövcud olduğu bir dövrdə Sizin rəhbərliyinizlə bu önəmli Forum çox lazımlı bir vaxtda təşkil edilib”.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Nobel sülh mükafatı laureatı Kailaş Satyartinin bu Forumda iştirakını və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə fəal əməkdaşlığını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev ölkəmizin Qərblə Şərq arasında mədəni körpü qurulması işinə töhfə verdiyini vurğulayaraq Azərbaycanın mütəmadi olaraq mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini bildirdi və gələn il BMT ilə birgə Mədəniyyətlərarası Dialoq Forumunun da keçiriləcəyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan multikultural dövlətdir, ölkəmizdə tarixən müxtəlif mədəniyyətlərin və dini konfessiyaların nümayəndələri dinc yanaşı yaşayıblar. Bununla da, Azərbaycan müxtəlif sivilizasiyaların bir araya gəlməsində mühüm rol oynayır.

X Qlobal Bakı Forumunun önəminə toxunan Azərbaycan Prezidenti çox sayda ölkədən tanınmış siyasi və ictimai xadimlərin, digər nümayəndələrin burada iştirakını tədbirin



nüfuzunun göstəricisi kimi dəyərləndirdi.

Görüşdə Azərbaycanın zəngin tarixi və mədəni irsi barədə danışıldı.

**AZƏRTAC**

## Naxçıvanda *“Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev”* mövzusunda elmi-praktiki konfrans keçirilib

Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” ilə bağlı görüləcək işlər üzrə Tədbirlər Planına uyğun olaraq “Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev” mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbirdə əvvəlcə Dövlət Himni, vəkil marşı səslənib, konfrans iştirakçıları Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda qurban gedən şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov açaraq konfransın işində uğurlar arzulayıb.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov çıxışında Naxçıvanda vəkilliklə bağlı mövcud çatışmazlıqlara, nöqsanlara, problemlərə toxunub, onun həlli yolları ilə bağlı fikirlərini bölüşüb, bu istiqamətdə gələcək fəaliyyət prinsiplərindən söhbət açıb. Qeyd edib ki, Azərbaycanda vəkilliyin müstəqil təsisat kimi formalaşması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin rəhbərliyi ilə bu sahədə aparılan islahatlar, qəbul edilən qanunlar vəkillik peşəsinin inkişafı üçün atılan çox önəmli addımlar idi. Sədr Naxçıvanda vəkilliyin daha da inkişaf etməsinə, güclənməsinə çalışacaqlarını vurğulayıb. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumları da vəkillik institutunun güclənməsində maraqlıdır, bu sahədə aparılacaq islahatlara dəstək göstərdikləri aydın görünür. Təbii ki, bu hal çox müsbət qiymətləndirilməlidir.

Sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimova xatirə hədiyyələri təqdim edib.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov çıxış edərək bildirib ki, dahi öndərin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi tariximizin ən mühüm və silinməz




səhifələrini təşkil edir. Çünki xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına Ulu Öndərin qətiyyəti nəticəsində nail olub. Sözsüz ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin irsi və titanik fəaliyyəti, eləcə də həyata keçirdiyi çoxşaxəli islahatlar zəngin və əhatəli elmi tədqiqatın mövzusudur. Ulu Öndərin ölkəyə rəhbərliyinin hər bir dövrü Azərbaycan ədliyyəsinin misilsiz inkişafı ilə yadda qalıb. Dahi şəxsiyyətin əvəz olunmaz əməyi nəticəsində formalaşmış hüquqi islahatlar həyata keçirilib. Əsası görkəmli dövlət xadimi tərəfindən qoyulan hüquqi islahatlar müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edir. Ölkəmizin hərtərəfli inkişaf etməsi, insan hüquq və azadlıqları sahəsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi hüquqi islahatların keyfiyyətcə yeni mərhələyə keçməsinə zəmin yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Əsgər Novruzov çıxışında qeyd edib ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra insan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulub, ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olunub, bu sahədə xüsusi Dövlət proqramı hazırlanaraq həyata keçirilməyə başlanılıb. Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə Konstitusiyanın qəbulu Azərbaycanda hüquqi islahatların aparılmasına zəmin yaradıb, demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün bütün müddəalar öz əksini Konstitusiyada tapıb. Həyata keçirilən məhkəmə-hüquq sistemindəki islahatlar isə ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha



operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edib, vahid hüquq sisteminin tərkib hissəsi kimi vəkillik institutunun da inkişafında mühüm rol oynayıb.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva deyib ki, 1995-2003-cü illər ərzində Ümummilli Lider Heydər Əliyev tərəfindən, ümumilikdə, 3104 məhkuma şamil edilməklə 32 əfv fərman və sərəncamı imzalanıb. Eyni zamanda Ulu Öndər Azərbaycanda amnistiya aktlarının qəbulunu da mütərəqqi bir ənənəyə çevirib və onun təşəbbüsü ilə 7 amnistiya aktı qəbul edilib. Bu amnistiya aktları 77 mindən artıq insana şamil olunub və nəticədə, həbsdən azad edilmiş insanlar ailələrinə və cəmiyyətə qovuşublar. Ölkəmizdə məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman institutunun yaradılması və fəaliyyətinin təmin edilməsi dövlət və vətəndaş münasibətlərində yeni bir başlanğıcın əsasını qoyub. Dövlətimizin başçısı cənab İlham Əliyev isə bu irsi layiqincə yaşadır. Ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən hüquq islahatları Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev bildirib ki, cinayət mühakimə icraatında dövlət ittihamını həyata keçirən təsisat olaraq cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi istiqamətində, habelə hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsində müdafiə institutu ilə səmərəli və işgüzar münasibətlərin inkişaf etdirilməsi zəruri məsələlərdəndir. Naxçıvan Muxtar Respublikasındakı prokurorluq orqanları tərəfindən vəkillik sahəsində həyata keçiriləcək islahatlara dəstək məqsədilə bütün zəruri addımları atacaq.

Konfransda çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, imzalanan memorandum, Naxçıvan Dövlət Universitetində təqdim olunan simulyasiya və digər proseslər, tarixi konfrans çox böyük önəm kəsb edir. Ulu Öndər hələ sovet dönəmində kadr hazırlığına böyük dəstək göstərib və bu siyasət bu gün də uğurla davam etdirilir. Naxçıvan Dövlət Universiteti Hüquqşünas yetişdirən ali təhsil müəssisələrindən biri kimi, bundan sonra da keyfiyyətli təhsilvermə baxımından ən son çağırışlara cavab verməyə çalışacaq.

Sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının 5 illik fəaliyyəti barədə hesabat filmi nümayiş olunub, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavini vəzifəsini müvəqqəti icra edən Behbud Səfərov və Naxçıvan Mediasiya Təşkilatının direktoru Yusif Həsənovun çıxışları dinlənilib.

✍ **Nail ƏSGƏROV**

## Anar Bağırov: “Muxtar respublikada ədalət mühakiməsinin ən yüksək standartlarına nail olmağa çalışacağıq”

Naxçıvanda keçirilən “Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev” mövzusunda elmi-praktiki konfransdan sonra ***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov*** “Şərq qapısı” qəzetinə müsahibə verib.



Müsahibədə Ulu Öndərin adı ilə bağlı olan konfransın əhəmiyyəti, Naxçıvanda vəkillik sahəsində mövcud nöqsanların aradan qaldırılması üçün görüləcək işlərdən, gələcək planlardan söhbət açılıb: – Bugünkü konfransda, fikrimcə, çox maraqlı müzakirələr aparıldı, zənnimcə, Naxçıvan Muxtar Respublikasında vəkillik sahəsində gələcəkdə aparılacaq islahatların konturlarını müəyyən etdik. Həqiqətən də, Naxçıvanda vəkillik sahəsində bir çox işlər görülüb, muxtar respublika Vəkillər Kollegiyasının yaxşı maddi-texniki bazası mövcuddur. Lakin bizi narahat edən bəzi məqamlar da vardır. Bu məqamlardan biri, təbii ki, ən əsası odur ki, Naxçıvan Muxtar Respublikasında vəkillərin sayı ölkəmizin digər ərazisi ilə müqayisədə xeyli azdır və zənnimcə, ən zəruri tədbirlərdən biri müntəzəm xarakter daşıyan imtahanların keçirilməsi, gənc hüquqşünasların vəkilliyə dəvət olunmasıdır. Bundan ötrü kompleks tədbirlər həyata keçiriləcək, imtahanlar təşkil olunacaq. Vəkillər Kollegiyası təkmilləşməlidir, cavanlaşmalıdır, vəkilliyə yeni nəfəs gəlməlidir. Əgər ölkəmizin digər ərazisi ilə müqayisə etsək, onda görərik ki, Naxçıvan Muxtar Respublikasında 100 min əhaliyə düşən vəkillərin sayı bir neçə dəfə azdır. Məsələn, orta respublika göstəricisi 100 min əhaliyə 23 vəkildirsə, Naxçıvanda bu rəqəm 6 nəfərə yaxındır. Yəni bundan sonra vəkillərin sayı xeyli artmalıdır. Nəticə etibarilə, hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin də qaldırdığı məsələlərdən biri də odur ki, Naxçıvan şəhərindən sonra digər rayon və şəhərlərdə də vəkil qurumları fəaliyyət göstərməlidir. Bununla əlaqədar da tədbirlər görülməlidir, həmin qurumların təşkilatlanması ilə bağlı müəyyən səylər göstərilməlidir. Eyni zamanda vəkillərin peşə hazırlığının artırılması, müvafiq təlimlərin təşkili də qarşımızda duran vacib vəzifələrdən biridir. İnanıram ki, qısa zaman ərzində bütün bu problemlər öz həllini tapacaqdır. Hər bir Naxçıvan sakini keyfiyyətli hüququ yardıma çatımlılıq əldə edəcək. Və beləliklə, Naxçıvan Muxtar Respublikasında ədalət mühakiməsinin ən yüksək standartlarına nail olunacaq.

Anar Bağırov qeyd edib ki, respublika Vəkillər Kollegiyası Naxçıvanla bağlı Tədbirlər Planı hazırlayacaq və ən qısa zamanda biz bu Tədbirlər Planını realizə edəcəyik. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən vəkillər də çox həvəslidirlər, onların da bir çox təklifləri var. Biz bu təkliflərin də hər birini nəzərə almışıq. Burada olan vacib problemlərdən biri də formal vəkillikdir. Əslində, Bakıda da bəzən bu problemə rast gəlinir. Formal vəkillik qətiyyən yolverilməzdir. Vəkillər öz vəzifələrini, funksiyalarını layiqincə və vəkil andına uyğun olaraq yerinə yetirməlidirlər. Hər bir vətəndaş vəkil tərəfindən göstərilən hüquqi xidmətin keyfiyyətinə əmin olmalıdır. Və təbii ki, Naxçıvanda cəmiyyətdə vəkillik nüfuzu mütləq artırılmalıdır. Məlum olduğu kimi, məhz Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsinə və qərarına əsasən 1999-cu ildən etibarən ölkəmizdə müstəqil vəkillik təsisatı formalaşıb. Və biz vəkillər Ulu Öndərin xatirəsini hər zaman əbədi olaraq yad edəcəyik. Çünki dahi şəxsiyyət, həqiqətən, postsovet məkanında vəkilliyə müstəqillik verən ilk liderlərdən oldu və Azərbaycan Respublikası bu baxımdan digər postsovet respublikaları ilə müqayisədə vəkilliyi müstəqil təsisat kimi fəaliyyət göstərən ilk respublikalardandır. Təbii ki, bu, Ulu Öndərin uzaqgörənliyidir. Çünki müstəqil vəkillik olmadan ölkədə ədalət mühakiməsinin yüksək standartlarına nail olmaq qeyri-mümkündür. Gələcəkdə Naxçıvana yeni səfərlərimiz, görüşlərimiz olacaq. Ümid edirəm ki, hər kəs müsbət dəyişiklikləri görəcək.

## Naxçıvan Muxtar Respublikasında əhaliyə ödənişsiz hüquqi yardım göstərilib



10 mart 2023-cü il tarixdə 2023-cü il “Heydər Əliyev İli” ilə əlaqədar Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Tədbirlər Planı çərçivəsində respublika ərazisində ödənişsiz hüquqi yardım aksiyalarına start verilib. Ölkə ərazisində fəaliyyət göstərən bütün vəkil qurumları tərəfindən aztəminatlı şəxslərə pulsuz hüquqi yardım göstərilməsi ilə əlaqədar “Açıq qapı” günü təşkil edilib.

Aksiya ilə əlaqədar “Yusif Allahverdiyev və Partnyorları” Vəkil Bürosunun vəkilləri tərəfindən Naxçıvanda 50-yə yaxın vətəndaşa hüquqi məsləhətlər verilib, həmçinin müvafiq yazılı ərizələr tərtib edilib.

Aksiyada kollegiyanın sədri Anar Bağırov da şəxsən iştirak edib və vətəndaşların hüquqi problemi ilə maraqlanıb.

✍ **Nail ƏSGƏROV**

# Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş tədbirlər keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində “Heydər Əliyev və müasir rabitənin inkişaf strategiyası” mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin zəngin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Tədbirdə rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev çıxış edərək xatırladıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edilib. Müstəqil Azərbaycanın memarı, Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə rabitənin gələcək inkişafı üçün bir sıra mühüm qərarlar qəbul edilib. 1970-ci il iyun ayının 24-də dahi rəhbərin təşəbbüsü və rəhbərliyi ilə “Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında” tarixi Qərar, 2003-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” müasir dövrdə ölkəmizdə bu sahənin inkişafına əsaslı zəmin yaradıb.

Bildirilib ki, rabitə sahəsində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilmiş məqsədyönlü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda informasiya əsrinin müəyyən etdiyi qlobal çağırışlar nəzərə alınaraq ölkəmizdə rabitə və yeni texnologiyaların inkişafı ilə bağlı bir çox konseptual strategiyalar və çoxsaylı müvafiq Dövlət proqramları qəbul edilib.

Muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı, eləcə də əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Ötən dövrlər ərzində Trans-Asiya-Avropa fiber-optik kabel magistralı üzərindən Nax-



çıvan-Bakı arası 155 meqabit saniyəlik rabitə kanalının istifadəyə verilməsi böyük tutumlu danışıq, videoinformasiya, sürətli internet və sair məlumat mübadiləsini həyata keçirməyə imkan verib, ümumilikdə, 229 müasirtipli avtomat telefon stansiyası quraşdırılıb, sakinlərə Nakhinternet provayderi vasitəsilə internetin təmin edilməsi üçün “Delta Telekom” və “Türk Telekom” İnternational şirkətləri ilə müqavilələr bağlanılıb, muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiberoptik kabel magistralına qoşulub, ilk dəfə Naxçıvanın tranzit telekommunikasiya imkanları yaradılıb.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, nazirlik tərəfindən muxtar respublika üzrə 2020-2022-ci illər ərzində 6878 abonentə sabit şəbəkə telefon xətti çəkilib, 20537 abonent genişzolaqlı internet ilə təmin olunub, nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində yeni telekommunikasiya avadanlıqları alınıb, monitorinqlər aparılaraq istismar müddəti ərzində rabitə və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması üçün operativ və zəruri tədbirlər həyata keçirilib.

Həmçinin bu müddət ərzində kadr hazırlığı da diqqətdə saxlanılıb, müvafiq peşə təhsilinə malik olmayan rabitə mütəxəssisləri peşə kurslarına cəlb olunub və müvafiq sertifikatlarla təmin edilib, mühəndis-proqramçıların zəruri biliklərinin artırılması məqsədilə müxtəlif istiqamətlər üzrə kurslar və təlimlər təşkil olunub.

Bildirilib ki, muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarında elektron xidmətlər göstərilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilib, bir sıra dövlət qurumlarının internet səhifələrinin “AzstateNet” şəbəkəsində yerləşdirilməsi təmin edilib, nazirliyin mühəndis-proqramçıları tərəfindən bir sıra dövlət qurumlarının internet səhifələri yenilənərək Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti təhlükəsizlik auditi aparılmaqla GOV.AZ domen zonasına köçürülüb, eləcə də e-poçt adresləri ilə də təmin olunub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli çıxış edərək vurğulayıb ki, Heydər Əliyev böyük siyasətçi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilib, buna görə də bu fenomen həmişə diqqəti cəlb edib. Dahi şəxsiyyətin heyranlıq doğuracaq coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılıb. Azərbaycana rəhbərliyi dövründə məhz Ulu Öndər Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilib. Yalnız Ulu Öndərin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Müəllimlər İnstitutunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz” mövzusunda dəyirmi masa keçirilib.*



Tədbirdə rektor Azad Novruzov çıxış edərək vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevin xidmətləri daim təhlil olunmalı və gələcək nəsillərə ötürülməlidir. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan dahi şəxsiyyət Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, milli oyanışın xalqımız üçün gərəkliliyini daim nəzərə almışdır. Bugünkü müasir Azərbaycan Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə böyük uğurlara imza atır. Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına, forumlara ev sahibliyi edir. Bütün regional layihələrin təşəbbüskarı və ya iştirakçısı olan Azərbaycan hər bir vətəndaşımızın fəxrinə çevrilib.

İnstitutun Tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev, İxtisasartırma və yenidən hazırlanma üzrə prorektoru Həbibə Allahverdiyeva, elmi katibi Qurban Qurbanlı, fakültə dekanları, kafedra müdirləri, professor və müəllimlər mövzu ətrafında fikirlərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin xalqımızın tarixi keçmişinin, milli-mənəvi dəyərlər sisteminin yaşadılması və təbliğindəki misilsiz xidmətlərindən, eyni zamanda gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi ilə bağlı tövsiyələrindən danışılıb.

Tədbirin sonunda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı yaradılmış sərgiyə baxış keçirilib.

**Aygül MƏMMƏDOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

* * *



Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası və Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin birgə təşkilatçılığı ilə “Ulu Öndər Heydər Əliyev və Naxçıvan” mövzusunda tədbir keçirilib.

“Heydər Əliyev İli” çərçivəsində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi vəzifəsini müvəqqəti icra edən, polis mayoru Fariz Nəsirov Ulu Öndər Heydər Əliyevin öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət olduğunu bildirib.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 2023-cü ilin iş planına əsasən keçirilən tədbirdə kitabxananın direktoru Tamella Əsgərova qeyd edib ki, dahi rəhbər özünəxas müdrikliklə totalitar sovet rejiminin sərt buxovlarından məharətlə yayınaraq respublikamızda milli dirçəlişə, yeni intibaha, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail olub.

Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin müdiri Elşən Xəlilov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Kütləvi iş şöbəsinin müdiri Turqay Orucov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin kitabxanaçısı Günel Hüseynovanın çıxışları dinlənilib.

Çıxışlarda vurğulanıb ki, dahi şəxsiyyət ötən əsrin doxsanıncı illərində Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının deputatı kimi fəaliyyət göstərən görkəmli dövlət xadimi Naxçıvan parlamentində təkcə Naxçıvan üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, siyasi həyatın demokratikləşməsi prosesinə təkan verən qərarların qəbul edilməsinə nail oldu. Sonrakı mərhələdə Ümummilli Lider Naxçıvandan başladığı xilaskarlıq missiyasını Bakıda, bütün ölkə miqyasında davam etdirdi.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Türkiyənin Naxçıvandakı Baş konsulu ilə görüş olub



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Şahin Nəbiyev Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya ilə görüşüb.

Xidmət rəisi əvvəlcə Türkiyədə baş verən zəlzələdə həlak olanlarla bağlı bir daha başsağlığını çatdırıb, yaralılara şəfa diləyib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əbədi və daim olduğunu təcəssüm etdirən ***“Bir millət, iki dövlət”*** müdrik kəlamı hər iki dövlətin vətəndaşları üçün örnəkdir.

Bildirilib ki, hərtərəfli inkişaf edən Azərbaycan-Türkiyə qardaşlığının ölkələrimiz arasında viza sahəsində də əməkdaşlığın dəyərləndirilməsi və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirib. Qeyd olunub ki, Dövlət Miqrasiya Xidməti bu gün muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin uğurla reallaşdırılmasına, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının, onların qanuni mənafelərinin qorunmasına və təmin olunmasına ciddi nəzarət edir.

Səmimi görüşə görə minnətdarlığını bildirən Asip Kaya Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini ifadə edib. Baş konsul bugünkü görüşün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb, qarşılıqlı əlaqələrin səmərəli və faydalı olacağına ümidvar olduğunu bildirib.

Görüş zamanı qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb, sonda xatirə şəkli çəkdirilib.

**Xəbərlər şöbəsi**

## Vətənə məhəbbətin, torpağa sevdanın özüsən, Şuşa!

### *Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin tikintisindən reportaj*

*Baş redaktorumuzun “Növbəti həftə içməli su təchizatı sistemlərinin tikinti layihəsi çərçivəsində görülən işlərin ictimaiyyətə çatdırılması üçün Şuşa şəhərinə yollanacaqsız” tapşırığını eşitdiyim an bütün vücudum titrədi, qəlbimdə tüğyan edən hədsiz sevinc, qürur hissini, inanmıram ki, nə vaxtsa hansısa sözlə tam şəkildə ifadə edə biləm. İllərdir, arzusu ilə yaşadığım, xəyallarda getməyə çalışdığım o müqəddəs torpağa gerçəkdə ayaq basmaqdan, o qəhrəman şəhərin havasını udmaqdan, təravətli ətrini ciyərlərimə çəkməkdən üstün nə ola bilər ki, dünyada? “Şükürlər ki, bu xoşbəxtlik mənə də qismət olacaq” düşüncəsi ilə iki gün keçmək bilmir ki, bilmir. Nəhayət, həsrətlə gözlədiyim həmin an yetişir. Qəzetimizin fotomüxbiri Əli Xudiyev və digər jurnalist həmkarlarımla birgə Bakı şəhərindən komfortlu, rahat avtobusa əyləşib yola düşürük. Dünya azərbaycanlılarını bir araya toplayan, 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” statusunu şərəflə daşıyan Şuşaya aparan, arzuların, xəyalların çiçək açdığı yola...*

İllər öncə ağlasığmaz vəhşiliyə məruz qalaraq virana dönmüş, minlərlə yanan ocağı söndürülmüş, hər qalığından soydaşlarımızın nəfəsi duyulan Füzuli şəhər mərkəzini, rayonun Tuğ, Xocavəndin Böyük Tağlar kəndlərini böyük ürək yanğısı ilə nəzərdən keçirərək qəhrəmanlıq dastanının kulminasiyasına, Vətənə məhəbbətin, torpağa, yurda sevdanın özünə – Şuşaya yaxınlaşırıq. Xalqımızı nicat yoluna çıxaran, “Qüdrətli Azərbaycan” adlı şah əsərin müəllifi Ümummilli Lider Heydər Əliyevin ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”.*** Ata vəsiyyətini yüksək səviyyədə yerinə yetirən ölkə başçısı cənab İlham Əliyevin böyükdən-kiçiyə hər kəsi ayağa qaldıran ***“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”*** mübarək kəlamları dolaşır yaddaşımda. Yol nişanı məsafənin azaldığını, vüsal məqamının yetişdiyini göstərir, illərdir, qəlbimizdə yatan gizli duyğular oyanaraq bir anda hayqırmağa başlayır, vətənpərvərlik hissləri kükrəyərək təlatümə salır, qürurla ehtizaza gətirir büsbütün vücudumu, kəlmələr dayanmadan könüldən süzülüb gəlir: Addım-addım yaxınlaşırıq sənə, əziz Şuşam! İlahi, bu nə gözəl hiss, nə unudulmaz, xoşbəxt andır yaşadırsan bəndələrinə, qəlbimizdə qaynayan arzunu, istəyi, diləyi, fəxarəti ifadə etməkdə sözlər aciz, kəlmələr yetərsiz qalıb... Əziz Şuşa, ayağımız qaça-qaça, ürəyimiz uça-uça, gözümüzdə giləlonən sevinc yaşları, qəlbimizi yandıran Vətən, yurd həsrəti ilə görüşünə gəlmişik! Əziz Şuşa, sənə Naxçıvan elindən, uğrunda dastan yazan məğrur oğullardan, övlad hicranı torpaq vüsalına çevrilən, başına qürur örpəyi çəkən analardan, bacılardan, əyilməz, dağ vüqarlı atalardan, qardaşlardan, Şərqin qapısının “Şərq qapısı”ndan qucaq dolusu salamdua gətirmişik... Artıq iki ildən çoxdur ki, yağılardan, bədxahlardan qurtulub doğma insanlarına qovuşmusan, bir daha gözün aydın, ürəyindən qəmi, nisgili, kədəri, hicranı ataraq sevinc dolu, güləruzlü, şirin sözlü olmusan, min şükür! Hər zaman qonaqlarını bax belə gülümsəyərək, xoş əhvali-ruhiyyə, şən ovqatla qarşılayasan...



Ovuc-ovuc, qarış-qarış, misqal-misqal torpağı, dağı, daşı, qayası ərlikdən, ərənlikdən danışan, havası cana məlhəm müqəddəs şəhərə ayaq basdığımız andan 44 günlük Vətən müharibəsində Böyük Zəfər salnaməsinin yazıldığı 42-ci günü, dünya hərb tarixinə qızıl hərflərlə həkk olunan Şuşa döyüşlərini, yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni əlbəyaxa şəkildə məhv edən igidlərin mərdlik, şücaətlik çağlayan söhbətləri, yaralı, şəhid olmuş yoldaşını çiyinlərində daşıyan oğulların məğrurluğu canlanır hafizəmdə. Yanından ötüb keçdiyimiz hər cığır, yol, qarşımıza çıxan yarğanlar, aşırımlar Azərbaycan əsgərinin, zabitinin qüdrətindən, cəsarətindən söhbət açır, “Basdığın yerləri “torpaq” deyərək keçmə, tanı!” nidası pıçıldayır düşüncəmə. Öz-özümə deyirəm: “Ey günlərlə ac, susuz qalan, yalnız Vətən eşqi ilə qidalanaraq bu qədər çətin, ağır, dözülməz yerləri keçən Azərbaycan oğlu! Tükənməyən gücünə, azalmayan cəsurluğuna, sınmayan əzminə, yenilməyən şücaətinə eşq olsun! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!” Döyüşlərin şahidləri – erməni ekoloji terroruna məruz qalan, Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən, qoynundakı nadir, qiymətli ağaclarına görə vaxtilə təbiət möcüzəsini xatırladan Topxana meşəsini, 29 il sonra qisası alınan, çətin relyefə malik Daşaltını seyr edəedə sıldırım qayalar boyunca ilan kimi gah qıvrılıb, gah açılan asfalt yolla nəzərdə tutulan ünvana yetişirik. Əvvəlcə Zarıslı çayının məcrasında yeni istismara verilmiş sutoplayıcı bəndə və nasos stansiyasına baş çəkir, daha sonra Şuşa şəhərində yeni su anbarlarının tikintisi prosesini izləyirik. Məlumat verilir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra dövlət başçısının tapşırığı ilə “Azərsu”





Açıq Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət qrup əraziyə ezam olunub. Mütəxəssislər tərəfindən su mənbələri, magistral xətlər, anbarlar və paylayıcı şəbəkələrin mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, düşmən tərəf şəhəri tərk edərkən Şuşanı içməli su ilə təmin edən magistral su kəmərlərini də sıradan çıxarıb.

Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə şəhərin əsas su mənbəyi olan Kiçik Kirs mənbəyi və Kiçik Kirs-Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub və dərhal bərpa tədbirlərinə başlanılıb. Mürəkkəb relyefə malik ərazidə, meşə və dağ şəraitində magistral su kəmərinin qəzalı hissələri təmir edilib və 25 noyabr 2020-ci il tarixdə Şuşa şəhərinə suyun verilişi təmin olunub. Buna qədər təxirəsalınmaz tədbir kimi Daşaltı kəndində sugötürücü məntəqə yaradılmışdı və maşınlarla şəhərə suyun daşınması təmin edilirdi. Şuşa şəhərinin bir mənbədən asılılığını aradan qaldırmaq üçün Zarıslı sugötürücü qurğusu, 11 kilometr uzunluğunda Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələri bərpa olunub və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilişi təmin edilib.

“Azərsu” ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı “Şərq qapısı” qəzetinə açıqlama verərək deyir ki, 2021-ci ilin sonlarında Şuşa şəhərinin içməli su təchizatının yenidən qurulması layihəsinin ilkin mərhələsi üzrə işlərə başlanılıb. Layihə çərçivəsində Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsi dəyişdirilib. Şuşa şəhərinin perspektiv inkişafı, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrinin tələbatı ödəməyəcəyi nəzərə alınaraq alternativ mənbənin yaradılmasına qərar verilib. Layihəyə əsasən Şuşa rayonunun Daşaltı kəndi yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı bənd tikilib. Mürəkkəb relyefdə çayın qarşısında bəndin inşası ilə paralel burada toplanan suyun şəhərə nəqli məqsədilə yüksək təzyiqə hesablanmış müasir nasos stansiyası və polad borularla 2,6 kilometr uzunluğunda kəmər inşa edilib. Nasos stansiyasında hər birinin məhsuldarlığı saatda 105 kubmetr təşkil edən 4 aqreqat quraşdırılıb. Sutoplayıcı bənddən götürülən su nasoslar vasitəsilə 26-27 atmosfer təzyiqlə Şuşa şəhərində yerləşən anbarlara nəql olunur və buradan özüaxımlı rejimdə şəbəkəyə ötürülür. Bununla da şəhərdəki obyektlər, hotellər və digər ictimai-iaşə müəssisələri, yaşayış olan evlər və dövlət qurumlarının inzibati binaları 24 saat içməli su ilə təmin edilir.

Öyrənirik ki, təsdiqlənmiş layihəyə uyğun olaraq Şuşa şəhərinin relyef baxımından hündür nöqtələrində 2 mərkəzi anbarın tikintisinə də başlanılıb. Layihələndirmə zamanı əhalinin dayanıqlı içməli su təchizatının aparılması üçün şəhər





8 müxtəlif təzyiq zonasına bölünüb, bu zonalardan 6-sı özüaxımlı rejimdə, 2-si isə hidrofor nasoslarla su ilə təmin olunacaq. Şuşa şəhərinin içməli və tullantı su təchizatı sistemlərinin yenidən qurulmasının növbəti mərhələsində şəhərdaxili içməli və tullantı su şəbəkələrinin tamamilə yenidən qurulması, tullantı sutəmizləyici qurğunun inşası nəzərdə tutulur. Hazırda “Azərsu” ASC tərəfindən Şuşa şəhərində fasiləsiz xidmət təşkil edilib. Xidmət briqadaları mənbələrdə, magistral kəmərlərdə və şəhərdaxili paylayıcı şəbəkələrdə yarana biləcək problemlərin operativ həlli məqsədilə fəaliyyət göstərir... Həyat, bolluq, bərəkət rəmzi sayılan, sinəndən axan bax bu su kimi saf, təmiz, bərəkətli ömrün olsun, Şuşa, – deyib bu qədim mədəniyyət mərkəzinə ekskursiyamıza davam edirik...

Möhtəşəm “Xarıbülbül” Festivalına təqdirəlayiq formada ev sahibliyi edən, yaz-yay aylarında şahə qalxan Qarabağ atları, güləş yarışına çıxan oğulları, güştü tutan pəhləvanları, bərbəzəkli xonçalarla məclis süsləyən ismətli qadınları, sinəsinə bəzək vuran xarıbülbülü ilə əsrarəngizliyə qərq olan Cıdır düzündən, şəhərin hündürdə yerləşən müxtəlif guşələrindən başdan-başa quruculuğa bürünən, sanki yenidən doğulan Şuşanın təravətli simasını seyr edirik. Geri qayıdarkən yolüstü erməni ekoloji terroruna qarşı çıxaraq günlərdir, əzm göstərən, faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən könüllü gənclərlə, ekoloqlarla görüşür, mənəvi dəstəyimizi, həmrəyliyimizi bildiririk... Zaman su kimi axıb gedir, Şuşadan ayrılmaq məqamı yavaş-yavaş yetişir artıq. Yuxarı Gövhər ağa məscidindən ucalan, ruha hüzur gətirən azan sədalarını dinləyir, doyumsuz gözəlliklərlə zəngin bu saf, müqəddəs şəhərə qəlbimdəki arzunun mükəmməl ifadəsi kimi İstiqlal marşının misralarını dodaqaltı zümzümə edirəm:

*Ruhumun səndən, İlahi,*
*budur ancaq diləyi:*
*Dəyməsin məbədimin köksünə*
*naməhrəm əli.*
*Bu azanlar ki şəhadətləri*
*dinin təməli,*
*Əbədi yurdumun üstündə*
*mənim inləməli.*

Qaranlıq ehmal-ehmal düşür, Şuşa axşamları başlayır. Düşünürəm ki, sanki ana təbiətin özü gecəsi də gündüzü qədər təravətli, qəlboxşayan olan bu yerdə doğulub, bu yerdə yaşayır. Azərbaycan və Türkiyə bayraqlarının ortasında, qəhrəman şəhidlərimizin al qanlarının rənginə boyanan, düşmənə gözdağı verən “Şuşa” tablosuna tamaşa edərək əyilməz, dağ vüqarlı şəhərimizlə sağollaşıram: Pənahəli xanın yadigarı, Üzeyirin musiqi dünyası, Vaqif poeziyası, Xan qızı Xurşidbanu Natəvanın şeir şövqü, ilham qaynağı, Bülbülün qəlbə yayılan xoş avazı ilə tanınan, sevilən Qafqazın sənət məbədi, Azərbaycanın qədim sivilizasiya mərkəzi, qəhrəmanlıq rəmzli, qələbə simvollu əziz Şuşam, nə yaxşı ki bizimsən, nə yaxşı ki, azadsan, nə yaxşı ki, səni görmək mənə də nəsib oldu, hər zaman belə saf, təmiz, gülərüzlü qalasan. Tezliklə Zəngəzur dəhlizindən keçib görüşünə gəlmək ümidiylə...

**Nail ƏSGƏROV**
***Naxçıvan-Şuşa-Naxçıvan***

# Naxçıvanda Milli Teatr Günü qeyd edilib



Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tədbir keçirilib. Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova tədbirdə çıxış edərək xatırladıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə hər il martın 10-u – “Milli Teatr Günü” kimi qeyd edilir. Ölkə Prezidentinin 2023-cü il 3 fevral tarixli Sərəncamı ilə bu il həm də Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 illik yubileyi ölkə səviyyəsində qeyd edilir. 2023-cü il həm də Naxçıvan teatrının yaradılmasının 140 illik yubileyi ilə əlamətdardır.

Bütün müsəlman Şərqində ilk dünyəvi, peşəkar teatr olan Azərbaycan teatrının yaranma tarixindən, keçdiyi inkişaf mərhələlərindən danışan nazir vurğulayıb ki, uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrı ötən əsrin 70-ci illərindən başlayaraq yeni bir mərhələyə qədəm qoyub. Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi zamanı söylədiyi dolğun və mənalı çıxışı xalqımızın milli sərvəti adlandırdığı Azərbaycan teatrının gələcək inkişaf proqramına çevrilib.

Çıxışda son illərdə ölkəmizdə teatr sənətinin inkişafı ilə bağlı görülən işlərdən danışılıb, peşəkar teatrın inkişafına göstərilən diqqət və qayğıdan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların da uğurla bəhrələndiyini bildirilib.



Qeyd edilib ki, ölkə başçısının Azərbaycan teatrının inkişafında özünəməxsus yerini, xalqımızın mədəni və ictimai həyatında mühüm rolunu nəzərə alaraq imzaladığı “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi haqqında” tarixi Sərəncam, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” status verilməsi haqqında qərarı göstərilən diqqətin bariz sübutudur.

Mədəniyyət naziri mədəni sərvətimiz olan teatrın qorunması və inkişaf etdirilməsində əməyi olan, teatra könül verən bütün mədəniyyət, teatr xadimlərini, teatrsevərləri hər iki yubiley münasibəti ilə təbrik edib, bu sahədə çalışan insanlara yeni sənət uğurları arzulayıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı “Heydər Əliyev İli” çərçivəsində mədəniyyətimizin, teatrımızın böyük qayğıkeşi Ulu Öndərə həsr edilmiş Aqşin Babayevin “Xilaskar” əsəri əsasında hazırlanacaq tamaşa ilə teatrsevərlərini sevindirməyə hazırlaşır.

Tədbirin bədii hissəsində şair-dramaturq Hüseyn Cavidin “Topal Teymur” əsəri əsasında hazırlanan tamaşa nümayiş olunub.

Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşanın quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmanqulu Əhmədovdur. Səhnə əsərində Xalq artistləri Rza Xudiyev (Topal Teymur), Rövşən Hüseynov (Divanbəyi), Azərbaycan Respublikasının Əməkdar artistləri Nazlı Hüseynquliyeva (Dilşad), Əli Əliyev (Yıldırım Bəyazid), Vidadi Rəcəbli (Əli paşa) və digər aktyorlar tarixi obrazlarla teatrsevərlərin qarşısına çıxıblar. Tamaşa maraqla qarşılanmışdır.



AMEA Naxçıvan Bölməsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı ilə birgə “Azərbaycan milli teatrı – 150” və “Naxçıvan teatrı – 140” mövzularında elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 3 fevral tarixli Sərəncamını xatırladan akademik Azərbaycan teatrının təşəkkül tarixinə qısa nəzər salıb. Teatrın xalqın maarifləndirilməsində, mədəni səviyyənin inkişafında, milli düşüncənin təşəkkülündə xüsusi rolundan bəhs edən bölmə rəhbəri deyib ki, XIX əsrin II yarısından başlayaraq Şuşada, Bakıda, Lənkəranda, Naxçıvanda və ölkənin başqa bölgələrində xalq teatr tamaşaları nümayiş olunub. Məhz bu səbəbdəndir ki, həmin dövrdən başlayaraq Azərbaycan ziyalıları dram əsərlərinin səhnələşdirilməsinə, bütövlükdə, ölkədə teatr məktəbinin formalaşmasına xüsusi diqqət göstəriblər. 1873-cü ildə Bakıda Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyasının səhnəyə qoyulması Azərbaycan teatrı üçün əlamətdar hadisə kimi tarixə düşüb.

Akademik vurğulayıb ki, teatr sənəti təkcə aktyorluq bacarığı ilə məhdudlaşmır, o həm də yüksək bədii gücə malik dram əsərlərinin, musiqi, rəssamlıq, səhnə tərtibatı kimi ustalıq tələb edən sənətlərin vəhdətidir. Naxçıvan teatrı da, öz növbəsində, 140 illik fəaliyyəti dövründə sənət aləminə peşəkar aktyorlar yetirməyi bacarmışdır.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov konfransda “Azərbaycan milli teatrının təşəkkülü, formalaşması və inkişafı” mövzusunda məruzə edib. Məruzədə teatrımızın yaranması və keçdiyi keşməkeşli inkişaf tarixinə nəzər salınıb, milli teatrımızın inkişaf tarixi dövrlər üzrə təhlil edilib.

Naxçıvan Dövlət Milli Dram Teatrının direktor müavini, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev “Naxçıvan Dövlət Milli Dram Teatrı bu gün” adlı məruzəsində teatrın müasir inkişafından danışıb. Məruzəçi ötən ilin aprel ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusunun verilməsini Naxçıvanın teatr tarixində əlamətdar hadisə kimi qiymətləndirib.

“Naxçıvan teatrının keçdiyi şərəfli inkişaf yolu” mövzusunda məruzə edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov Naxçıvan teatrının inkişafında tanınmış maarifpərvər ziyalıların xidmətlərindən, müxtəlif vaxtlarda tamaşaya qoyulan əsərlərdən, rolları ifa edən aktyorlardan, müstəqillik illərində Naxçıvan teatrının əldə etdiyi uğurlardan bəhs edib.

* * *

Naxçıvan Dövlət Universitetində Milli Dram Teatrının yaranmasının 150-ci ildönümü qeyd olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev dünya mədəniyyət tarixində teatrların yaranmasının dövlətçiliyin tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdırıb. Rektor teatr ənənəsinin qorunmasının vacibliyini qeyd edərək cəmiyyətin müxtəlif sahələrinin maarifləndirilməsindəki rolundan danışıb. Diqqətə çatdırılıb ki, hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşılan muxtar respublikamızda teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi əhəmiyyət verilir. 2011-ci ildə ali təhsil ocağında Teatr və mədəniyyətşünaslıq kafedrasının nəzdində Aktyor sənəti ixtisasının fəaliyyətə başlaması ixtisaslı aktyor kadrlara olan tələbatın ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.



Azərbaycan peşəkar teatrının yaranması, təşəkkülü, janrlarının formalaşması və inkişafı barəsində danışan Teatr və mədəniyyətşünaslıq kafedrasının dosenti, Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü Ələkbər Qasımov Azərbaycan Milli Teatrının keçdiyi keşməkeşli dövrün milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Aktyor sənəti ixtisasının tələbələri Qurban Səidin “Əli və Nino” əsərindən bir parça, Ramiz Rövşənin şeirləri əsasında hazırlanmış “Dünya qəfil işıqlansa” adlı tamaşa kompozisiya, Hüseyn Cavidin “İblis” faciəsindən parça və “Susqunluq” bədii kompozisiyaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

## Torpaq yolda sürünən sülhməramlı oyunu

*(replika)*

Dünya nizamını 180 dərəcə dəyişdirəcək Rusiya-Ukrayna müharibəsi yeni mərhələyə girdiyi bir vaxtda, Cənubi-Qafqazda davamlı sülh yaradılması məqsədilə bu gün Azərbaycan dövləti tərəfindən irəli sürülən konstruktiv təkliflərin sabah, bəlkə də, olmayacağını yaxşı bilən ermənilər hələ də köhnə vərdişlərindən əl çəkmək istəmirlər. Haradasa bir Roma imperatorunun baş çobanı olmuş mifik Tiqrana xas həyat tərzi keçirən haylar onlara hamar yolla verilmiş sülh təklifləri üzərində düşünməkdənsə, köhnə torpaq yollarda sürünməkdə hələ çox istəklidirlər. Moskvanın ətəyindən yapışıb çirkin niyyətlərinin ardınca daşlı-torpaqlı, kələ-kötür yollarda bəd əməllər axtaran dünyanın bu ən sarsaq insanları ruslara verilmiş 5 illik sülhməramlı dövrünün bitməsindən sonra görəsən kimə sığınacaqlar?

Şübhəsiz, Rusiyadan başqa ermənilərin ABŞ, Fransa, İran, Livan, hətta uzaq Argentina kimi səpələndikləri hər yerdə pitekantroplara xas göstərdikləri davranışlara görə dəstəkçiləri tapılacaq. Amma gələcəkdə onların Cənubi-Qafqaza indikindən daha az dil uzadacaqlarını bildikləri halda ermənilərin bu meymun vərdişlərindən əl çəkməməsinin səbəbi nədir, görəsən?

Dünya tarixində dövlətlərin inkişaf mərhələlərinə baxdıqda da burada sülhsevər və hərtərəfli inkişaf etmiş güclü qonşu faktorunun ən mühüm səbəblərdən biri olduğunu asanlıqla görmək mümkündür. Ortaq ticarət, turizm və digər iqtisadi-mədəni əlaqələr prizmasından baxdıqda bu gün Avropa, Şimali Amerika və ya Uzaq Şərqdəki ölkələrin bir-biri ilə nə dərəcədə bağlı olduqlarını qeyd edə bilərik. Eləcə də ölkəmizin Naxçıvan Muxtar Respublikası ərazisində qardaş Türkiyə ilə cəmi 11 kilometrlik bir ortaq sərhədinin olmasının hər iki xalq üçün “Bir millət, iki dövlət” tandemi yarada bilmək baxımından nə qədər şanslı olduğunu da deyə bilərik. Ancaq təəssüf ki, bu gün cənub qonşumuzda meydan sulayan molla rejimi, şimal qonşumuz Rusiyadakı imperialist xislətlərin, qərb qonşumuz Ermənistanın isə başdan-başa dəngəsiz, aqressiv və etibarsız dövlət olması reallığı ilə üz-üzəyik. Üstəlik, İrandakı mollaların heç bir zaman Qətərdəki kimi zəngin və səxavətli, Rusiyanın heç bir zaman Ukrayna kimi sülhsevər, Ermənistanın da Gürcüstan kimi arzuedilən qonşular olmayacağını bildiyimizdən bu gün dövlət başçımızın apardığı siyasətin



məqsədi də məhz bu qədər mürəkkəb mühitdə ölkəmizi gündən-günə gücləndirməklə tam müstəqil siyasi güc halına gətirməkdir. Bunun üçün hər cür siyasi platformalarda yaranmış fürsətləri sülh və əməkdaşlıq dialoquna çevirmək üçün göstərilən səylər məhz bu məqsədə xidmət edir.

Revanşist Ermənistanın Rusiyaya, onun dırnaqarası sülhməramlısına bu cür bağlı olaraq ənənəvi torpaq yollarda sürünməsinin, əslində, üç yüz ilə yaxın bir dövrdən gələn tarixi arxazəmini vardır. Bu qədər bir dövrdə heç bir müharibədən kənarda qalmamış Rusiyanın özündən dəfələrlə böyük ərazilərə sahiblik etməsindən ruhlanan ermənilər də köçürüldükləri torpaqlarda böyük bir dövlət yaratmaq xəyalları qurmuşlar. Yalan, fitnə, riyakarlıq, əlaltı olmaq kimi hər cür ləyaqətdən uzaq siyasət və fərdi davranışlara silahlanmış erməni toplusu məhz bu yolla onları alət etmiş imperialist güclərə xidmət ediblər. Fransanın Afrikada, Rusiyanın Əfqanıstanda, Amerikanın Vyetnamda, molla rejiminin isə Cənubi Azərbaycanda törətdiyi soyqırımını əzbərləyib, bu dəhşətlərin prototipini Xocalıda gerçəkləşdirən hayların adı bu gedişlə tarix kitabının ən qara səhifəsində yazılıb. Bu mənada, hazırda Rusiyanın ona tarixən ən bağlı ölkə olmuş Ukraynaya qarşı rüsvayçı işğalçılıq müharibəsi apardığı bir dövrdə hayların rus əsgərləri ilə Qarabağın torpaq yollarındakı çıxdıqları oyunlar qədim Hindistan saraylarında diz çökən erməni kənizlərinin sevdası qədər gülünc görünür. Axı sirr deyil ki, bu gün Ukraynada öldürülüb, Krımdakı krematoriya sobalarında cəsədi yandırılmaqdansa, Qarabağda “sülhməramlı” kimi hərbi xidmət keçmək hər bir rus gəncinin xəyalıdır. Bunun üçün isə rus ordusunun hərbi rəislərinə rüşvət vermək üçün pul lazımdır. Pul da 30 illik işğal dövründə Qarabağın təbii sərvətlərini, buradan didərgin düşmüş azərbaycanlıların evlərini divar daşına qədər söküb Arazın o tayındakı -zadehlərə, -dianlara, -purlara satmış ermənilərdə. Nə qədər istəyirsən! Elə bu günlərdə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınması da belə rus-erməni işbirliyini ifşa edən növbəti rüsvayçılıqdır.

Artıq o dövrlər arxada qalmış, Qarabağ öz əzəli və əbədi sakinlərinə qovuşmuşdur. Müzəffər Azərbaycan əsgərinin qəhrəmanlıq dastanı yazdığı Zəfər yolu ilə hər gün yüzlərlə turist Şuşaya, ölkəmizin və Türk dünyasının mədəniyyət paytaxtına ziyarətə tələsir. İndi Qarabağa başladılan Böyük qayıdışa xidmət edəcək hava limanları, dəmir və avtomobil yolları burada yaşayacaq hər bir sakinin rahatlığı və təhlükəsizliyi üçün yaradılır. Lakin özünü sakin hesab etməyən, bəlkə də, keçmişdə törətdiyi cinayətlərə görə buna üzü olmayan ermənilər isə hələ də sülhməramlılarla birgə dərəarası torpaq yollarda sürünürlər. Baxaq, görək bu nə qədər sürəcək. Qabaqdan Qarabağın yaz yağışları gəlir...

**SAVALAN**

### İtmişdir

İsmayılov Ramil Rafiq oğluna məxsus olan “Mersedes Benz” markalı avtomobilin 99 XD 724 nömrəli dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Əliyev Hümbət Həmzə oğluna verilmiş 7N-213A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 193